*FB-nin arxivindən: Baxış bucağında*

*Yədulla AĞAZADƏ - 75*

# VİCDANIN MƏRAMI

## *Yadulla Ağazadənin özlü triadası*



Açığı elə yazılar olur ki, oxuyursan... sonra da dayanıb düşünürsən... elə bil ki əvvəlcədən düşüncənə yığdığın sözləri, aldığın ilkin təəssüratı yazmaq istəmirsən. bəlkə də yaza bilmirsən. çünki alt qatda yatan müəllif məramı sənə deyir ki, yaxşı düşün.

Sözlərin, bütövlükdə mətnin səmimihyəti könlünə xoş ovqat bəxş edir... səni dərinliklərə çəkən şirin bir hiss çağırır.

Dünyanın şirin, bəlkə də çox şirin nemətlərindən bir tamahdır çağırır tutur və batırır... göz görəti əlləşirsən canını qurtara bilmirsən.

Bir şirin nemət də var dərinlikləri göstərir baş vurma əzablarına səni sövq edir, ancaq ucalara, ucalıqlara qaldırır təmiz vicdan sağlam məram bu da tamahdır bu hara, o hara.

Vicdan və məram anlamları yaxındır doğmadır vicdan məramın aliliyini qoruduqca doğmadırlar xəyanət olmasa dünyanın nizamı bu iki məfhumun əlindədir.

Mən hər dəfə Yadulla Agazade ni oxuyanda özümü yazmaq keçir könlümdən... çünki Yadulla Agazada sözün vicdan damarına toxuna bilir.

Hə qayıdıram sözümün evinə niyə dayanırsan sualına.

Bədxahlar üçün sərt misalı tərsinə yozuram.

Geniş yaz, dərin yaz özünü də taparsan yaradarsan. Məsud Mahmudov, Ilham Tahirov... hələ bəlkə sən də varsan oxucu dostum, kənar qalma.

Məram uca olanda dəniz zirvədən başlanır....əsas məramdır.

Müəllifin məramı mətnin ümumi ruhu ilə varlığına hopur. inanırsan ki, heç kim, heç nə gözdən iraqda deyil.

Tam inamımla deyirəm ki, İlham Tahirov yubileyi el bayramı kim qeyd olunmağa haqqı olan alimlərimizdəndir. bəri başdan gözəl alim və böyük insan İlham müəllimi mən də təbrik edir, can sağlığı diləyirəm.

Ancaq bu qeydlərdə mənim başqa yanaşma ilə mövqe məramım var.

Yadulla Ağazadənin yazı ölçüsü, meyarı vicdani yanaşmadır.

İlham Tahirovu da, Məsud Mahmudovu da yaxşı tanıyıram.

Elmi mühitləri ilə mənəvi təbiətləri çox ahəngdardır. onların hər biri elə bu harmoniyada pərvəriş tapıb, çox hörmətli şəxsiyyətlər kim formalaşıblar.

Yaxşılar haqqında yaxşı nə deyilirsə halallığı ilahidən gəlir.

Açığı bəzən heç bir dəfə görmədiyim adamlar var ki, onları çox dəyərli dostlarım sırasında bilirəm varlıqlarından Vətən naminə, insanlıq naminə məmnunluq duyduğum adamlar var. Professor Yadulla Agazadənin tərənnüm etdiyi obrazları da həmin qəbildən bilirəm...

Yadulla Agazada insan obrazına münasibətdə sərraf mövqeyində durur...

Nəhayət, yazını oxuyandan sonra gəldiyim qənaəti də deyim... bu yazılar ilahi bir hökmün istəyi ilə ona görə yazılır ki, həyatın ilahi nizamı qorunsun...

Hər üç dostumla fəxr edirəm...

Vətənin üç böyük alimi, xalqın çox işıqlı zəkaları Tanrı sizləri qorusun.

Bir sözlə, həm İlham Tahirovun, həm də Məsud Mahmudovun hər birinə, eyni zamanda adında insanlığımızın, böyük ünvanlı sözümüzün aynası missiyasını daşıyan Yadulla Ağazadəyə insan, zəka, mənəvi zənginlik, elmi potensial axtarışlarında uğurlar diləyirəm.

**P.S.** ***Bu qeydlərin könül oxşayan nötlarını dostum Yədulla Ağazadə ad günü təbriki kimi də qəbul edə bilər...***

*Əli Rza XƏLƏFLİ,*
*01 07. 2023.*